Mədəni-maarif.2006№1.-S.31





# Sənətinin vurğunları

Başqa sahələrə nisbətən mədəniyyətdə çalışanlar daha həssas, daha duyğulu və daha kövrək olurlar. Xoş bir sözdən uçmağa qanad taxdıqları kimi, qeyri-obyektiv qiymətdən də dərdə-qəmə bələnirlər. Odur ki, onlara xüsusi qayğı və diqqətlə yanaşmağımız gərəkdir. Bunu yaxşı anlayan Balakən Rayon Mədəniyyət Şöbəsinin müdiri Ruqiyyə xanım Seyidova bu vəzifəyə təyin olunduğu ilk günlərdən kadrların düzgün yerləşdirilməsinə, onların qüvvə və bacarığından səmərəli istifadə edilməsinə lazimi fikir verdi. Təsadüfi deyil ki, heç bir işçini vəzifəsindən uzaqlaşdırmadan o, qısa bir zamanda yerlərdə dönüş yaradılmasına nail oldu.

Bu sahədə həyata keçirilən yeniliklərdən biri də qabaqcıl mədəniyyət işçilərinin müəyyənləşdirilməsi ilə bağlıdır. Onlardan dördünü diqqətinizə veririk: Nərgiz Hacıyeva, Fatma Cunayeva, Çiçək Səfərova və Təranə Cabbarova. Nərgiz- ilin ən yaxşı mədəniyyət işçisi, Fatma- ilin ən yaxşı kitabxanaçısı, Təranə- ilin ən yaxşı muzey işçisi, Çiçək-ilin ən yaxşı musiqi müəllimi adına layiq görüldü.

Bu cür müsabiqələrin başqa rayonlarda da keçirilməsi öz səmərəsini verərdi...

*Şəhla*



Nərgiz Hacıyeva



Təranə Cabbarova



Fatma Cunayeva



Çiçək